

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 57 (22.968)

30 mart 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Martın 29-da Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İran biznes forumu keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani biznes forumda iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti Həsən Ruhanini qarşılayıb.

Prezident İlham Əliyev və Prezident Həsən Ruhani Neftçala Sənaye Məhəlləsində yaradılan "Azərmaş" ASC və "İran Khodro" şirkətinin birgə "Xəzər" avtomobil zavodunun açılışını bildirən düyməni basıblar.

Daha sonra Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı görülən işlərdən bəhs edən videoçarx nümayiş olunub. Videoçarxda İran ərazisində Azərbaycan Dəmir Yollarının Astara terminalı haqqında məlumat verilib.

Dövlət başçıları biznes forumunda nitq söyləyiblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonierin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.




## Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbirlər keçirilib



***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı martın 29-da "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi" mövzusunda elmi-praktik konfrans keçirib.***

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, dosent Elman Cəfərli konfransı giriş sözü ilə açaraq "Ümummilli lider Heydər Əliyevin azərbaycanlıların soyqırımı və deportasiyasına dair fərmanlarının, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamının tarixi-siyasi əhəmiyyəti haqqında" çıxış edib. Qeyd olunub ki, adıçəkilən fərmanlar on illər ərzində geniş xalq kütlələrindən gizli saxlanılmış soyqırımı və deportasiya həqiqətlərinin araşdırılıb üzə çıxarılmasında, xalqımıza qarşı erməni cinayətlərinin aşkarlanmasında həlledici əhəmiyyətə malik olub. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 yanvar tarixli Sərəncamı ilə azərbaycanlıların soyqırımının 100 illiyinin qeyd edilməsi isə yalnız ölkə ictimaiyyətinin deyil, bütövlükdə, dünyanın diqqətinin soyqırımla bağlı əsl həqiqətlərə yönəldilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Konfransda "XX əsrdə azərbaycanlıların soyqırımı və deportasiyası" mövzusunda çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı şurasının üzvü, "Naxçıvan" Universitetinin İdarəetmə fakültəsinin dekanı Elbrus İsayev qeyd edib ki, bu faciələrin kökündə azərbaycanlıların müsəlman və türk olmaları amili dayanıb. Lakin hazırda müstəqil Azərbaycan Respublikasının mövcudluğu bundan sonra belə faciələrin təkrar yaşanmasına yol verməyəcəkdir.

"Ermənilərin azərbaycanlılara qarşı soyqırımlarının pərdəarxası və böyük dövlətlərin dəstəyi" mövzusunda çıxış edən AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri Emin Şıxəliyev 1918-ci ildə Qərbi Azərbaycan torpaqları hesabına daşnak işğal rejiminin yaradılmasından bəhs edib, Sovet İmperiyasının bölgədə öz maraqlarını həyata keçirmək siyasətindən danışıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin sədri Cəbi Quliyev "XX əsrdə ermənilərin Naxçıvanda törətdiyi soyqırımı" mövzusunda çıxış edərək 1905-1907-ci və 1918-1920-ci illərdə ermənilərin Naxçıvan əhalisinə qarşı həyata keçirdiyi qanlı qırğınlardan bəhs edib. Bildirib ki, həmin dövrdə Naxçıvanda könüllü özünümüdafiə dəstələrinin mübariz fəaliyyəti, Azərbaycan hökumətinin və qardaş Türkiyənin fəal yardımı nəticəsində Naxçıvanı erməni işğalından qorumaq mümkün olub.

Konfransa Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli yekun vurub. Konfransın gedişində mövzularla bağlı slaydlar nümayiş olunub.

* * *

Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının Yaycı kəndində Azərbaycanlıların Soyqırımı Günü münasibətilə keçirdiyi tədbirdə iştirakçılar əvvəlcə Yaycı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin ətrafında ağac və gül kolları əkib, abidə önünə gül dəstələri qoyublar. Sonra soyqırımı qurbanlarının xatirəsi yad edilib.

Tədbirdə rayon təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimov çıxış edərək bildirib ki, 1918-ci ilin mart qırğınları ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı şəkildə həyata keçirdikləri soyqırımı siyasətinin mərhələlərindən biridir.

Vurğulanıb ki, ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra bu məsələyə prinsipial yanaşma nümayiş etdirilib, erməni millətçilərinin xalqımıza qarşı illərlə reallaşdırdıqları soyqırımı və deportasiya siyasətinin mahiyyəti bütünlüklə açıqlanıb və ifşa olunub. Ümummilli liderimizin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı ilə hər il respublikamızda 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur, soyqırımı qurbanlarını anma tədbirləri keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 18 yanvar tarixdə imzaladığı "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncama uyğun olaraq bu gün respublikamızda silsilə tədbirlər keçirilir.



Qadir İbrahimov deyib ki, 1918-ci ilin mart hadisələrində ermənilər üç gün ərzində təkcə paytaxt Bakı şəhərində minlərlə soydaşımızı vəhşicəsinə qətlə yetiriblər. Sonrakı günlərdə Şamaxı, Quba və digər yerlərdə də minlərlə azərbaycanlı bu faciənin qurbanı olub, yaşayış məntəqələri, məscidlər, mədəniyyət abidələri dağıdılıb. 1918-1920-ci illərdə Qarabağ, Qərbi Azərbaycan və digər bölgələrdə yüzlərlə soydaşımız amansızlıqla öldürülüb. 1918-1921-ci illərdə Naxçıvanda ermənilər tərəfindən 73 min 727 nəfər azərbaycanlı ən vəhşi üsullarla qətlə yetirilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun göstərişi ilə 2007-ci ildə Yaycı soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılıb, ətrafında park salınıb, tikinti-abadlıq işləri görülüb. İndi bura sakinlərin, xüsusilə də gənclərin müqəddəs and yerinə çevrilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Fərəc Fərəcov, kənd ağsaqqalı Sabir Nəzərov, Yeni Azərbaycan Partiyası Rayon Təşkilatının şura üzvü, Saltaq kənd tam orta məktəbinin direktoru Sevinc Mustafayeva, Dizə kənd tam orta məktəbinin müəllimi Nənəxanım Əliyeva, rayon İcra Hakimiyyəti başçısının Yaycı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Səfər Quliyev çıxış ediblər.

Sonda Yaycı kənd 1 və 2 nömrəli tam orta məktəblərin şagirdləri soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

* * *

***Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatında 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı anım tədbiri keçirilib.***

Əvvəlcə soyqırımı qurbanlarının və Vətən uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin əziz xatirəsi yad edilib.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva çıxış edərək bildirib ki, ermənilər zaman-zaman xalqımıza qarşı terror, soyqırımı siyasəti həyata keçirib, dəhşətli cinayətlərə əl atıblar. Rəsmi məlumatlara əsasən 1918-ci il mart ayının son günlərində ermənilər Azərbaycanda, ümumilikdə, 50 minə yaxın insanı xüsusi amansızlıqla qətlə yetiriblər.

Qeyd olunub ki, 1918-1920-ci illərdə ermənilər 1602 kəndi yerlə yeksan ediblər. Daşnaklar həmin illərdə Qərbi Azərbaycanda (indiki Ermənistanda) qədim ata-baba yurdlarında yaşayan 565 min azərbaycanlını öldürüblər. 1988-ci ildə ermənilərin başladıqları müharibə nəticəsində isə minlərlə insan qətlə yetirilib, torpaqlarımızın 20 faizi işğal edilib, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkünə çevrilib.

Vurğulanıb ki, ermənilərin azərbaycanlılara qarşı törətdikləri bu soyqırımı aktları və deportasiya siyasəti ilə bağlı məsələyə ilk siyasi-hüquqi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verilib. Ulu öndərin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman bu baxımdan mühüm tarixi sənəddir.

Diqqətə çatdırılıb ki, bu gün dahi şəxsiyyətin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycanın milli problemlərinin beynəlxalq səviyyəyə qaldırılması, erməni vandalizminin ifşası istiqamətində əzmkar və qətiyyətli fəaliyyət göstərir. Ölkə başçısının rəhbərliyi ilə 1918-ci il 31 mart soyqırımına dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl işlər görülür.



Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının şura üzvü Mahir İsmayılov, partiya üzvlərindən Yurdçu kənd tam orta məktəbinin müəllimi Teymur Əsgərov mövzu ilə bağlı çıxış ediblər.

Sonda 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş videomateriala baxış olub.

## Test imtahanı olub

29 mart 2018-ci il tarixdən etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük xidmətində vakant vəzifələrin tutulması üçün 25 yanvar 2018-ci il tarixdə elan olunmuş müsabiqənin test imtahanları keçirilir.



Müsabiqəyə çıxarılan vakant vəzifələrin tutulması üçün 117 namizəd sənəd təqdim edib. Test imtahanlarında keçid balını toplamış şəxslər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqdır. İmtahanda namizədlərə qanunvericilik üzrə 80, informasiya texnologiyaları üzrə 10, məntiqi təfəkkürün yoxlanılması üzrə 10 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib, sualları cavablandırmaq üçün namizədlərə 2 saat vaxt verilib. Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. İmtahan bitdikdən sonra namizədlərə cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim edilib. İmtahanda Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsinin əməkdaşları müşahidəçi kimi iştirak ediblər.

Nəticələr komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdiriləcək. Test imtahanları 30 mart 2018-ci il tarixədək davam edəcəkdir.

## Quruculuq işləri davam etdirilir

Culfa rayonunun Qazançı kəndində yeni məktəb binası, kənd və xidmət mərkəzləri inşa ediləcək. Kənddə tikilən məktəb binasının 3 mərtəbədən ibarət olması nəzərdə tutulub. 154 şagird yerlik məktəbdə 12 sinif otağı, 4 elektron lövhə, idman zalı, müxtəlif laboratoriyalar olacaq.

Kənd mərkəzində həkim ambulatoriyası, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, baytarlıq, rabitə evi və digər dövlət qurumlarının birgə fəaliyyəti üçün şərait yaradılacaq. Bununla yanaşı, kənddaxili yollarda, su, qaz və elektrik xətlərində cari təmir işlərinin aparılması, tarixi-memarlıq abidəsi olan Qazançı körpüsünün də bərpa edilməsi nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2018-ci il 16 fevral tarixli “Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında” Sərəncamı bölgə sakinləri ilə yanaşı, muxtar respublika ictimaiyyəti tərəfindən də böyük sevinc hissi ilə qarşılanıb. Ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasətinin əməli nəticəsi kimi yaradılan rayon təşkil edildiyi gündən böyük bir inkişaf yolu keçib. Bölgədə genişmiqyaslı kompleks quruculuq tədbirlərinin aparılması, müxtəlif sosial obyektlərin həyata vəsiqə alması Babəki müasir Azərbaycan rayonuna çevirib. Bölgədə yeni emal və istehsal müəssisələri yaradılıb, aqrar sahənin inkişafı diqqətdə saxlanılıb, əhalinin məşğulluğunun təmin edilməsi üçün məqsədyönlü işlər görülüb, insanların sosial müdafiəsinin gücləndirilməsi prioritet vəzifəyə çevrilib.*

## Babək rayonu — 40

# Aqrar sahə rayonun iqtisadi həyatında mühüm rol oynayır





Məlumat üçün onu da bildirək ki, hələ on il bundan əvvəl, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Babək rayonunun təşkil olunmasının 30 illiyi haqqında” 2008-ci il 7 iyun tarixli Sərəncamına əsasən rayonda keçirilən tədbirlərdə bölgənin 30 illik inkişaf yolu təhlil edilib, verilişlər hazırlanıb, yazılar dərc olunub. Həmin materiallarda çox qısa bir zaman kəsiyində qazanılan uğurlar öz əksini tapıb. Bu münasibətlə işıq üzü görən “Babək rayonu – 30” adlı tarixi-statistik məcmuədə də bu dövrdə həyata keçirilən işlərin həcminə təəccüblənməmək mümkün deyil. Bəhs olunan dövrdə rayonda sənayenin, kənd təsərrüfatının, rabitə və nəqliyyat infrastrukturunun, informasiya-kommunikasiya texnologiyalarının, təhsil, mədəniyyət, səhiyyə sahələrinin inkişafı, əhalinin məşğulluğunun təmin edilməsi ilə bağlı həyata keçirilən tədbirlər son 10 ildə də davamlı xarakter alıb. Belə tədbirlərdən aqrar sahəyə də xeyli pay düşüb. Bu sahədən danışarkən, ilk növbədə, ölkəmizdə ötən əsrin sonlarında əsası qoyulmuş aqrar islahatlar dövrünə qayıtmağa ehtiyac var. Bu məsələnin də həlli ümummilli liderimizin adı ilə bağlıdır.

Həmin islahatlara ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyət göstərərkən, məhz görkəmli dövlət xadiminin rəhbərliyi ilə 6 aprel 1992-ci ildə start verilib. O dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar qəbul edilib. Əvvəlcə Culfa rayonunun Gal və Şurud kəndlərini əhatə edən “Azərbaycan” sovxozunun torpaq və əmlak payı kənddə yaşayan əhali arasında proporsional şəkildə bölünüb. Sonra isə muxtar respublikanın digər rayonlarında da bu proses davam etdirilib.

Babək rayonunda aqrar islahatların ilk mərhələsində 16 min 417 ailəyə 10 min 687 hektar torpaq sahəsi verilib, 349 yük avtomobili, 204 traktor, 48 taxılyığan, 22 silos və yemyığan kombayn özəlləşdirilib. Rayon ərazisində meliorasiya işini yaxşılaşdırmaq məqsədilə 1978-ci ildən ötən dövr ərzində 38 nasos stansiyası, 45 subartezian quyusu tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilib, 7 su anbarı yaradılıb. 2005-ci ildə Heydər Əliyev Su Anbarı istifadəyə verildikdən sonra Babək rayonunun 13 min 869 hektar sahəsinin suvarılması təmin olunub, 4364 hektar yeni sahə əkin dövriyyəsinə daxil edilib. 2007-ci ildə muxtar respublika üzrə kənd təsərrüfatında istehsal olunmuş ümumi məhsulun 24 faizi, yaxud 28 milyon 904 min manatı Babək rayonunun payına düşüb.

Kənd təsərrüfatında iqtisadi fəallığın xüsusi mülkiyyət üzərində qurulması islahatlardan ötən dövr ərzində bu rayonda da öz bəhrələrini verib. Aqrar sahədə islahatların uğurla başa çatdırılması kənd əhalisinin rifah halının yüksəldilməsinə, aqrar sahədə çalışan istehsalçılara zəruri texniki, maliyyə və informasiya dəstəyinin gücləndirilməsi bu sahədə idarəetmə mexanizminin müasir tələblər səviyyəsində qurulması istiqamətində işin səmərəli təşkilinə əsaslı zəmin yaradıb. “Naxçıvan Muxtar Respublikasında aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 28 yanvar tarixli Sərəncamı ilə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin yaradılması, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 fevral tarixli qərarına əsasən mineral gübrələrin güzəştlə satışı və əkin sahəsinin becərilməsində hər hektara istifadə edilən yanacaq və motor yağlarına görə 40, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 26 noyabr tarixli qərarı ilə təsdiq edilmiş qaydalara əsasən kənd təsərrüfatı məhsullarının istehsalçılarına buğda əkini üçün hər hektara əlavə olaraq 40 manat yardımın verilməsi muxtar respublikanın hər yerində olduğu kimi, Babək rayonunda da bir sıra uğurlara yol açıb.

“Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında” Sərəncamda oxuyuruq: *“Babək rayonu muxtar respublika iqtisadiyyatının inkişafında da mühüm rol oynayır. Rayonda müxtəlif profilli yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması sənayenin inkişafını təmin etmişdir. Fermer və torpaq mülkiyyətçilərinə maliyyə dəstəyinin artırılması, müxtəlif güzəştlərin tətbiqi, texnika və avadanlıqlarla təminatın yaxşılaşdırılması, meliorasiya tədbirlərinin gücləndirilməsi, yeni açıq və qapalı su xətlərinin çəkilməsi kənd təsərrüfatının inkişafına əhəmiyyətli təsir göstərmişdir”.*

Statistik rəqəmlərə müqayisəli şəkildə nəzər salsaq, ötən illər ərzində həyata keçirilən tədbirlərin bəhrələrini görə bilər, aqrar sahənin böyük sürətlə inkişaf etdiyinin şahidi olarıq. Burada bir amili də xüsusi vurğulamağa ehtiyac var. Babəklilər 20 ildən artıqdır ki, öz torpaqlarının sahibidirlər. Onlara bu qiymətli sərvətdən səmərəli istifadə etmək üçün hərtərəfli şərait yaradılıb. Torpaq da ona əyilənə səxavətini əsirgəmir. Bu səxavət isə yaxşı gün-güzəran, daxili bazara töhfə, muxtar respublika iqtisadiyyatına kömək deməkdir. Keçək faktlara. 2007-ci ildə rayonda kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 14,7 min hektar olub. Bu, 1978-ci illə müqayisədə 21,5 faiz artım deməkdir. Getdikcə əkin sahələri genişləndirilərək 2017-ci ildə 16 min 172 hektara çatdırılıb.

2007-ci ildə dənli və dənli-paxlalı bitkilərin əkin sahəsi 1978-ci illə müqayisədə 24,7 faiz artaraq 8,7 min hektara, məhsul istehsalı 2,2 dəfə artaraq 28,6 min tona, məhsuldarlıq isə 74,1 faiz artaraq orta hesabla 32,9 sentnerə çatıb. Ötən il isə rayonda 10 min 628 hektarda dənli və dənli-paxlalı bitkilərin əkini keçirilib, sahələrdən 33 min 507 ton məhsul yığılıb.

Rayonda taxıl əkininə yüksək önəm verilir. Bunun nəticəsidir ki, bölgədə buğda əkini sahələri 1978-ci illə müqayisədə 14,8 faiz artaraq 5,9 min hektar, məhsul istehsalı 2 dəfə artaraq 20,2 min ton, məhsuldarlıq isə 75,2 faiz artaraq orta hesabla 34 sentner təşkil edib. 2017-ci ildə isə 6964 hektar buğda əkini sahəsindən 22 min 124 ton buğda, 3456 hektar arpa əkini sahəsindən 10 min 696 ton arpa tədarük olunub.

Bölgədə iqlim şəraiti və torpaq xüsusiyyətləri, həmçinin daxili tələbat nəzərə alınmaqla kartofçuluğun inkişafına xüsusi yer verilir. Torpaqlardan səmərəli istifadə, daxili bazarın qorunması, tələbata uyğun keyfiyyətli məhsul istehsalının dəstəklənməsi məqsədilə həyata keçirilən tədbirlər nəticəsində 2007-ci ildə kartofun əkin sahəsi rayonun yarandığı dövr ilə müqayisədə 10 dəfə artaraq 265 hektar, məhsul istehsalı 21,2 dəfə artaraq 4,5 min ton, məhsuldarlıq isə 2,1 dəfə artaraq orta hesabla 167,8 sentner olub. 2017-ci ildə kartof əkini sahəsi 476 hektara çatdırılıb, sahələrdən 8739 ton kartof yığılıb. Məhsuldarlıq orta hesabla 183,6 sentner təşkil edib.

Muxtar respublika sakinlərinin yerli tərəvəz məhsullarına olan tələbatının ödənilməsində Babəkin torpaq mülkiyyətçiləri mühüm rol oynayırlar. Bu səbəbdəndir ki, ötən dövr ərzində rayonda tərəvəzin əkin sahəsi 14 dəfə artaraq 2,2 min hektar, məhsul istehsalı 10,4 dəfə artaraq 17,4 min ton olub. Ötən il isə 2093 hektar tərəvəz bitkiləri əkini sahəsindən 23 min 974,2 ton tərəvəz məhsulları yığılıb.

2007-ci ildə bostan bitkilərinin əkin sahəsi 1978-ci illə müqayisədə 21 dəfə artaraq 1,8 min hektar, məhsul istehsalı 90,1 dəfə artaraq 26,4 min ton, məhsuldarlıq isə 4,3 dəfə artaraq 149,3 sentner olub. 2017-ci ildə 1511 hektar bostan bitkilərinin əkin sahəsindən 22 min 458 ton bostan məhsulları yığılıb.

2007-ci ildə meyvə və giləmeyvə bağlarının sahəsi 1978-ci illə müqayisədə 4,2 dəfə artaraq 0,3 min hektar, məhsul istehsalı 75 dəfə artaraq 5,3 min tona çatdırılıb. Ötən il meyvə bağlarından 7008,9 ton məhsul yığılıb. İl ərzində yeni meyvə bağlarının salınması davam etdirilib, 10 min 600 ədəd meyvə tingi əkilib. Üzüm bağlarından 5842,8 ton məhsul toplanılıb. Bəhs olunan dövrdə 3080 üzüm tingi basdırılıb.

Qeyd edək ki, rayonda təkrar əkinlərin aparılmasına da ciddi önəm verilir. Bəhs olunan dövrdə 189,4 hektar sahədə təkrar əkin aparılıb, 2018-ci ilin məhsulu üçün 10 min 237 hektar sahədə payız əkini üçün şum qaldırılıb. 2017-ci ildə 10 min 216 hektar sahədə dən üçün payızlıq səpin aparılıb. Bunun da 7170 hektarı buğda, 3046 hektarı isə arpadır.

2017-ci ildə Babək rayonunun kənd və balıqçılıq təsərrüfatlarında 90348,1 min manatlıq məhsul istehsal edilib.

Burada bir məsələni xüsusi vurğulamaq gərəkdir. Aqrar sahədə əldə olunan uğurlarda sahibkarlıq subyektləri və ailə təsərrüfatları xüsusi çəkiyə malikdirlər. Məlumat üçün bildirək ki, yaradılanda sahibkarlıq subyekti barmaqla sayılası qədər az olan rayonda bu gün 68 sahibkar və ailə təsərrüfatı qeydiyyatdadır. Müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olan zəhmət adamları hərtərəfli dövlət qayğısı ilə əhatə ediliblər. Rayon mərkəzi Babək qəsəbəsi, Nehrəm, Zeynəddin, Cəhri və başqa kənd yaşayış məntəqələrində fəaliyyət göstərən təsərrüfatlar istehsal etdikləri məhsullarla daxili bazara töhfələrini verirlər. Ötən il Naxçıvan şəhərində keçirilən “Ailə təsərrüfatı məhsulları” festivalında babəkli sahibkarların məhsullarına yüksək qiymət verilib. Həmin məhsullara muxtar respublikanın bütün bölgələrində fəaliyyət göstərən mağaza və ictimai iaşə obyektlərində rast gəlmək olar. Bu isə o deməkdir ki, rayonda aqrar sahə yeni müstəvidə inkişaf etdirilir.

* * *

Babəklilər rayonun 40 yaşını qeyd etməyə hazırlaşırlar. 40 ildə bir əsrə bərabər yol keçilən bölgədə hamının üzü gülür. Çünki Babəkin müasir Azərbaycan rayonuna çevrilməsində sakinlərin də böyük əməyi var. Onlar həyatın bütün sahələrində fəallıq göstərib, bölgəyə göstərilən qayğıya əməli işləri ilə cavab verməyə çalışıblar. Ömrünü aqrar sahənin inkişafına bağlayan torpaq mülkiyyətçiləri, fermerlər də bu proseslərdə böyük fəallıq göstəriblər. Çəkdikləri zəhmət hədər getməyib. Bu gün isə onların məsuliyyəti bir qədər artıqdır. Təşkil olunmasının 40 illiyini daha yüksək göstəricilərlə qeyd etmək üçün torpaq adamları artıq sahələrdə də ilk əkinlərə başlayıblar. Onlar əmindirlər ki, 2018-ci yubiley ilini də uğurla başa vuracaqlar.

**Muxtar MƏMMƏDOV**

## İstehsal müəssisələri

# Daxili bazar yüksəkkeyfiyyətli quş əti ilə təmin edilir

***Muxtar respublikada sahibkarlıq subyektlərinin sayının artması, onlar üçün kreditlərin verilməsi yeni iş yerlərinin açılmasına və əhalinin məşğulluq səviyyəsinə də müsbət təsir edib. Belə subyektlərdən biri də Şərur rayonunun Zeyvə kəndində fəaliyyət göstərən quşçuluq təsərrüfatıdır.***



Bu günlərdə həmin müəssisədə olduq. “Məmmədtağı” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Məmməd Tağıyev bildirdi ki, müəssisə 7 hektarlıq geniş bir ərazini əhatə edir. Sahibkarlığa Kömək Fondundan alınan dövlət maliyyə dəstəyi ilə istehsal sahəsində Türkiyə, İtaliya mənşəli müasir avadanlıqlar quraşdırılıb. İstehsal sahələrində avtomatik rejimdə işləyən havalandırma və istilik sistemləri qoşulub, enerji kəsintisinin qarşısını almaq üçün generator qoyulub. Müəyyən olunan qrafikə əsasən istehsal sahələrində dezinfeksiya işləri aparılır. Müəssisədə kəsim sexi, ümumi tutumu 150 ton olan 2 soyuducu anbar, laboratoriya, yem anbarı, yeməkxana, baytar və digər iş otaqları var.

Sahibkarın sözlərinə görə, yaradılan şərait 55 gün ərzində 150 ton quş əti və gündəlik 35 min yumurta istehsal etməyə imkan verir.

Burada 10-dan çox çeşiddə məhsul istehsal olunur. Müəssisənin hazır məhsullar saxlanan bölümündə satışa çıxarılacaq quş əti və yumurtanın saxlanma şəraiti ilə maraqlandıq. Toyuqlar kəsilir, təmizlənir, yuyulur və 3 mərhələli soyuducudan keçir. Əvvəlcə toyuq əti soyuducuda 30-40 dəqiqə ərzində sıfır dərəcəyədək soyudulur, paketlənir, sonra digər soyuducu anbarda mənfi 40 dərəcədə 8 saat saxlanılır, sonuncu – üçüncü mərhələdə isə hazır məhsul başqa bir soyuducu anbara yerləşdirilir, burada mənfi 18 dərəcə temperaturda saxlanılır və satışa çıxarılır. Məhsulların üzərində tərkibi, saxlanma şəraiti, istehsal və son istifadə tarixi göstərilir.

Müsahibimiz bildirdi ki, istehlakçılar tərəfindən get-gedə bu məhsullara olan maraq artmaqdadır. Bunu ticarət şəbəkələrindən, ayrı-ayrı şəxslərdən alınan sifarişlərdən də görmək olar. İstehsal olunan məhsullar təkcə Şərur rayonunda deyil, Naxçıvan şəhərində də özünə xeyli sayda alıcı toplayıb. “Şərur broyler” ticarət nişanı ilə satışa çıxarılan məhsulların pərakəndə ticarət obyektlərinə çatdırılması üçün nəqliyyat vasitəsi də vardır.

Müəssisə ilə tanışlıqdan gəldiyimiz qənaət isə belə oldu ki, “Şərur broyler” muxtar respublikada əhalinin quş ətinə olan tələbatının ödənilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına töhfəsini verməyə çalışır.

**Ramiyyə ƏKBƏROVA**

# "Şamil Qazıyev – 110" elmi konfransı keçirilib

AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyi münasibətilə elmi konfrans keçirilib. AMEA Naxçıvan Bölməsində keçirilən konfransı giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 1 fevral tarixli Sərəncamına əsasən görkəmli rəssamın 110 illik yubileyi muxtar respublikada geniş qeyd olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sərəncamı bir daha təsdiq edir ki, muxtar respublikada müstəqillik illərində incəsənətə, mədəniyyətə, mənəvi irsimizə böyük diqqət vardır.

Qeyd olunub ki, Şamil Qazıyev zəngin həyat və yaradıcılıq yolu keçmişdir. 1908-ci ildə qədim Azərbaycan şəhəri İrəvanda anadan olmuş, 1920-ci ildən ailəsi ilə birlikdə Naxçıvana köçmüşdür. 1929-cu ildə Bakı Rəssamlıq Məktəbini bitirən Şamil Qazıyev 1929-1932-ci illərdə Naxçıvan Pedaqoji Texnikumunda rəsm müəllimi, 1932-ci ildən sonra müxtəlif illərdə "Kommunist" və "Şərq qapısı" qəzetlərində rəssam, Naxçıvan Dövlət Musiqili Dram Teatrında baş rəssam, 1939-1940-cı illərdə Naxçıvan Rəssamlıq Məktəbinin direktoru, 1948-1980-ci illərdə isə "Azərbaycan gəncləri" qəzetində rəssam işləmişdir.

Diqqətə çatdırılıb ki, ömrünün 50 ilini təsviri sənətə və teatr rəssamlığına həsr edən, orijinal və bənzərsiz yaradıcılığa malik olan Şamil Qazıyev vətənpərvər rəssam olmuş, müxtəlif janrlarda maraqlı əsərlər yaratmışdır. Rəssamın Naxçıvanın tarixi, təbiəti, adət-ənənələri, həyat və məişəti ilə bağlı çəkdiyi "Çoban", "Xırmanda", "Qalayçılar", "Dəyirman", "Lavaş yapanlar", "Qaçqınlar", "Çarıqçılar", "Öküzlərin nallanması", "Örtülü bazar", "Naxçıvan hamamı", "İnqilabaqədərki Naxçıvan", "Naxçıvanda köhnə həyat" kimi əsərlər keçmiş tariximizin və mədəniyyətimizin öyrənilməsi üçün olduqca mühüm əhəmiyyətə malikdir. Bu baxımdan Şamil Qazıyev yaradıcılığı, eyni zamanda Naxçıvanın tarixidir. Bu tarix o dərəcədə real cizgilərlə tamamlanıb ki, heç bir çətinlik çəkmədən onlara baxıb Naxçıvanın 20-ci əsr tarixinin müəyyən elementlərini, tarixi və mədəniyyət abidələrini bərpa etmək mümkündür. Məhz buna görə də Şamil Qazıyev yaradıcılığına xüsusi diqqət göstərilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı və himayəsi ilə 2010-cu ildə əsərlərindən ibarət albom-kataloq hazırlanmış və təqdimatı keçirilmişdir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 5 iyun tarixli Sərəncamı ilə yaradılan "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, həmçinin Naxçıvan Dövlət Tarix Muzeyində Şamil Qazıyevin Naxçıvanın tarixinin, adət-ənənələrinin və məişətinin parlaq şəkildə öz əksini tapdığı əsərləri sərgilənir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci il 1 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına əsasən Bəhruz Kəngərli adına Sərgi Salonunda Şamil Qazıyevin əsərlərindən ibarət sərgi təşkil olunmuşdur. Şamil Qazıyevin yaradıcılığı ilə bağlı tədqiqat işlərinin aparılması, uşaq incəsənət məktəblərində "Şamil Qazıyevin yaradıcılığında Naxçıvan" mövzusunda ustad dərslərin keçilməsi davam etdirilir. "Şamil Qazıyev – 110" elmi konfransı da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamına əsasən keçirilir.

Konfransda AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun direktoru, filologiya elmləri doktoru Fərman Xəlilovun "Görkəmli rəssam Şamil Qazıyevin həyatı və yaradıcılığı", Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyevanın "Şamil Qazıyev yaradıcılığına dövlət qayğısı", Naxçıvan Dövlət Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Mahir Xəlilovun "Şamil Qazıyevin əsərlərində milli motivlər", Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi Nizami Alıyevin "Şamil Qazıyev yaradıcılığında məişət janrı" mövzularında çıxışları dinlənilib.

Çıxışlarda bildirilib ki, müxtəlif janrlarda və mövzularda bir-birindən orijinal, dəyərli sənət əsərləri yaratmış Şamil Qazıyevin yaradıcılığında qədim diyarımızın həyatı, etnoqrafik xüsusiyyətləri dolğun şəkildə öz əksini tapıb. Görkəmli rəssamın həyatı və yaradıcılığı, Vətənə bağlılığı muxtar respublikamızın gənc rəssamları üçün əsl nümunədir. Qeyd olunub ki, ötən əsrin 40-cı illərində təsis edilən "Naxçıvan MSSR Əməkdar incəsənət xadimi" fəxri adı 1944-cü ildə ilk dəfə Şamil Qazıyevə verilib. 1978-ci ildə isə onun Naxçıvan şəhərində fərdi sərgisi təşkil olunub.

Sonra görkəmli rəssam Şamil Qazıyevin qızı Natella Qazıyeva çıxış edərək göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

✍ Səbuhi HƏSƏNOV

*Şamil Qazıyev – 110*

# Milli mədəniyyətimizi və etnoqrafiyamızı yaşadan qiymətli irs

***Naxçıvan rəssamlıq məktəbinin görkəmli nümayəndələrindən biri də Şamil Qazıyevdir. Azərbaycanın tanınmış rəssamı, SSRİ Rəssamlar İttifaqının üzvü, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Şamil Qazıyevin anadan olmasının 110 illiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 1 fevral tarixli müvafiq sərəncamına əsasən yüksək səviyyədə qeyd olunur.***



Şamil Qazıyevi, əsasən, teatr rəssamı kimi tanısaq da, onun təsviri sənətin müxtəlif növləri və janrlarında yaratdığı çoxlu sayda boyakarlıq və qrafika əsərləri vardır. Rəssamın yüksək işlənmə texnikası və bədii dəyəri ilə seçilən boyakarlıq əsərlərindən "Avtoportret", "Natürmort", "İrəvanda qədim körpü", "Qədim İmamzadə", "Xıncov kəndi", "İlanlıdağ", "Dağ yolu", "Gəc zavodu", "Köhnə qala", "Əlincə qalası" əsərləri və özünəməxsus konkret cizgiləri, rəsmetmə manerası ilə sənətsevərlərin diqqətini cəlb etmiş qrafik kompozisiyalarından "Qardaşımın portreti", "Avtoportret", "Ata", "Köhnə həyət", "Culfada köhnə mehmanxana", "Naxçıvanda pambıq zavodu", "Hacıkənd", "110 yaşlı qoca", "Köhnə İrəvan", "Köhnə Naxçıvan", "Çobanlar qışlaqda", "Ədil Ağa gölü", "Culfa dağları" kimi bir-birindən dəyərli tablolarını misal göstərmək olar.

Şamil Qazıyevin yaradıcılığında Naxçıvanın qədim tarixi, füsunkar təbiəti, fədakar insanlarının həyat və məişəti ilə bağlı əsərlər əsas yer tutur. Rəssamın əsərləri təkcə Naxçıvandakı muzeylərdə deyil, eyni zamanda Azərbaycanın və digər ölkələrin muzey və qalereyalarında qorunub saxlanılır. 1931-ci ildə Tiflisdə keçirilən SSRİ rəssamlarının səyyar sərgisində Şamil Qazıyevin "Çoban" əsəri Moskvadakı Tretyakov Qalereyası tərəfindən bəyənilərək satın alınıb və hazırda bu qalereyada nümayiş etdirilir.

Şamil Qazıyevin xalqımızın qədim adət-ənənələrini, zəngin tarixi-etnoqrafiyasını, sadə və zəhmətkeş insanlarının həyat tərzini əks etdirən bir-birindən dəyərli onlarla sənət əsərləri vardır. Bu əsərlər içərisində sənətsevərlərin böyük rəğbətini qazanmış və yüksək sənətkarlıq qabiliyyəti ilə seçilən məişət mövzusundakı kompozisiyaları xüsusilə qeyd etmək lazımdır. Belə tablolardan biri də "Köhnə dəyirman" əsəridir.

Əsər iki kəndlinin köhnə bir su dəyirmanında dən üyütməsinə həsr edilmişdir. Yağlı boya ilə çəkilmiş bu əsər isti və soyuq rənglərin qarışıq tonları ilə işlənmişdir. İlk baxışdan əsərin əsas planında diqqəti cəlb edən qapı və bacadan düşən işıq, soyuq rənglərlə kəskin kontrastlıq yaratsa da, kompozisiyanın ümumi koloritini pozmur. Əksinə isti və soyuq rənglər arasında vəhdət yaradaraq əsərin hər iki planını tamamlayır. Tabloda təsvir olunan insan və heyvan fiqurlarının anatomik proporsiyaları, interyer və detalların perspektiv quruluşu, işıq və kölgə münasibətləri ən kiçik incəliyinə kimi işlənmişdir. Rəssam əsərdəki kəndli obrazlarını qədim və sadə milli geyimdə təsvir etmişdir. Geyimlərin tünd monoxrom rəngdə həlli Azərbaycan kişilərinin xüsusiyyətindəki ağır təbiətliliyinə işarə edilir və onların bir çox müsbət xarakterlərini əks etdirir.

Dəyirmanın interyer quruluşu – sadə kapitelli ağac dirəkləri və dam tirlərinin düzgün düzülüşü, üst-üstə qalanmış rəngarəng dolu çuvallar, dənlik, novdan, çax-çax, unluq, dən daşları və digər detallar, eləcə də memarlıq elementləri Naxçıvandakı su dəyirmanları üçün tamamilə xarakterikdir. Hazırda Culfa rayonundakı Kırna, Saltaq və digər kəndlərdəki dəyirman qalıqlarının interyer quruluşu, Şamil Qazıyevin "Köhnə dəyirman" əsərində təsvir etdiyi dəyirmanın daxili quruluşu ilə olduqca oxşardır.

Rəssamın digər maraqdoğuran boyakarlıq əsərlərindən biri də "Öküzlərin nallanması" tablosudur. Əfsuslar olsun ki, çoxdan tarixə dönmüş nalbənd sənət növünə yalnız iki rəssamın – Ələkbər Rzaquliyevin və Şamil Qazıyevin əsərlərində rast gəlirik. Haqqında söhbət açacağımız əsər istər bədii sənətkarlıq cəhətdən, istərsə də etnoqrafik adət və ənənələrimizin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Yağlı boya ilə çəkilmiş bu tabloda öküzlərin nallanması bütün incəliyinə kimi, böyük bir ustalıqla təsvir edilmişdir.

Rəssam insan və heyvan rəsmlərini müxtəlif formalarda çəkməsinə baxmayaraq, fiqurların anatomik quruluşunu və bədən proporsiyalarını olduqca düzgün təsvir etmişdir. Birinci planda nisbətən soyuq rənglərdə işlənmiş insan fiqurlarından fərqli olaraq öküz təsvirləri isti rəngdə verilmişdir. İsti rəng tamaşaçının diqqətini özünə çəkməklə bərabər, ikinci və üçüncü plandakı fiqurların eyni çalarlı rəngləri ilə birləşərək kompozisiyaya dinamiklik və canlılıq verir. Bu isə tabloya hakim olan soyuq rənglərlə uzlaşaraq kompozisiyanın ümumi koloritini balanslaşdırır və əsərin əsas ideyasının ön plana çıxmasına kömək göstərir. Ayrıca, rəssam ikinci plandakı fiqurlara yardımçı detallar kimi baxmamışdır. Onları da əsas fiqurlar kimi canlı və dolğun rənglərlə çəkmişdir. İkinci və üçüncü plandakı digər fiqurların düzgün natura quruluşu, kənardakı sənətkar dükanlarının perspektiv plan həlli və kompozisiyanın təmiz rənglərlə çəkilməsi əsərin realistik görünüşünü tamamlayır.

Əsərin əsas detallarından biri də üzərinə əski əlifbayla "Nalbənd" sözü yazılmış dəmirçi dükanı və onun yanında bağlanmış iki at fiqurudur. Dükanın sadə və kasıb görünüşdə çəkilməsi ilk baxışdan diqqəti cəlb edir. Tablonun ikinci planında nallanmağa gətirilmiş atlar, üçüncü planda isə digər sənətkarlıq emalatxanaları və sərbəst alış-veriş edən bir qrup kəndli təsvir edilmişdir. "Öküzlərin nallanması"əsəri təkcə tarixi-etnoqrafik baxımdan deyil, eyni zamanda bədii-estetik cəhətdən də olduqca qiymətlidir.

Şamil Qazıyevin maraqlı əsərlərindən biri də "Lavaş yapanlar" tablosudur. Yağlı boya ilə işlənmiş bu əsər bir qrup kəndli qadının təndirdə lavaş bişirmələrinə həsr edilmişdir. Rəssam ağbirçək nənələrimizdən bizə miras qalan bu müqəddəs mərasimi bütün incəliklərinə kimi, fırçanın qüdrəti ilə yaradaraq mədəniyyət xəzinəmizə daha bir qiymətli sənət əsəri bəxş etmişdir.

Görkəmli sənətkar bu əsərində milli geyimdəki tipik Azərbaycan qadınının məğrur, qayğıkeş və zərif obrazını böyük ustalıqla yarada bilmişdir. O, qadınların geyimlərini onların yaşlarına uyğun rənglərdə vermişdir. Birinci plandakı 35-40 yaşlarında olan üç qadının geyimini yaşıl, innabı, bənövşəyi və göy rənglərin tünd çalarları ilə, ikinci plandakı gənc qızın geyimini isə soğan sarısı və açıq göy rənglərdə təsvir etmişdir. Geyimlərin tünd rəngdə həlli qadın fiqurlarını təndir və onun ətrafındakı detalların sadə rəng çalarlarından fərqləndirərək ön plana çıxarır.

Kompozisiyanın mərkəzində təsvir olunmuş təndirin işıltısı, bişən çörəklər və təndirdən çıxarılmış isti lavaşların təbii görüntüsü insanda xoş əhval-ruhiyyə yaradır. Əsər istər yağlı boya ilə işlənmə texnikası baxımından, istərsə də bədii yaradıcılıq cəhətdən çox yüksək sənətkarlıqla işlənmişdir.

Şamil Qazıyevin bu səpkidə yaratdığı maraqlı tablolarından biri də "Xırmanda" əsəridir.

Əsər az qala tarix səhnəsindən silinmək üzrə olan bir mərasimə, taxılın xırmanda döyülməsinə həsr olunmuşdur. Rəssam digər əsərlərində olduğu kimi, "Xırmanda" əsərində də burada görülən işləri ən xırda detalına kimi yüksək sənətkarlıqla təsvir etmişdir.



*"Köhnə dəyirman"*



*"Öküzlərin nallanması"*



*"Lavaş yapanlar"*



*"Xırmanda"*

Tablonun mərkəzində dairəvi şəkildə yayılmış sünbüllərin döyülməsi səhnəsi birinci plan kimi verilib. Əsərin sadə və lakonik kompozisiyası, fiqurların və digər təsvir obyektlərinin perspektiv və natura quruluşu rəssamın tamaşaçıya çatdırmaq istədiyi fikri tam şəkildə əhatə edir. Ayrıca kompozisiyanın əsas planlarının isti, bəsit yaxılı, monoxrom və təmiz rənglərdə həlli, eləcə də fiqurların dinamik şəkildə çəkilməsi tablonun arxa planını təşkil edən samanın ağ bulud və göy üzü mavisi rənglərinin fonunda bütövləşərək əsərin ümumi koloritini yaradır və kompozisiyanı tamamlayır.

*Bizə miras qalmış belə əvəzsiz sənət əsərlərinin təbliği, elmi və bədii cəhətdən tədqiqi gələcək nəsillərin estetik dünyagörüşlərinin formalaşması və qədim adət-ənənələrimizin öyrənilməsi baxımından olduqca zəruridir.*

**Nizami ALIYEV**
***Azərbaycan Rəssamlar İttifaqının üzvü, sənətşünas***

## Tur-aksiya iştirakçıları Naxçıvan şəhərinin tarixi və mədəniyyət abidələri ilə tanış olublar

### *Şagirdlər muxtar respublikadan xoş təəssüratlarla ayrılıblar*



"Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyanın iştirakçıları martın 29-da Naxçıvan şəhərində yerləşən tarixi və mədəniyyət abidələri ilə yaxından tanış olublar. Əvvəlcə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə gələn tur-aksiya iştirakçılarına muxtar respublikanın ərazisində aşkarlanan tarixi əşyalar haqqında ətraflı məlumat verilib. Sonra məktəblilər Naxçıvan Biznes Mərkəzində olublar.

Naxçıvan şəhərindəki Gənclər Mərkəzi ilə tanış olan tur-aksiya iştirakçıları ilə burada görüş keçirilib. Tədbirdə muxtar respublikanın gənclər və idman naziri Azad Cabbarov, təhsil naziri Məmməd Qəribov və başqaları çıxış ediblər.

Natiqlər ekskursiyanın önəmindən danışaraq bildiriblər ki, Prezident cənab İlham Əliyevin tapşırığına əsasən həyata keçirilən tur-aksiya böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların dünyagörüşünün formalaşması baxımından böyük əhəmiyyətə malikdir.

Vurğulanıb ki, bu gün muxtar respublikada təhsilin inkişafı, bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olunması, müasir idman infrastrukturunun yaradılması, gənclərin idmana marağının artırılması daim diqqət mərkəzində saxlanılır.

Bakı şəhərindən olan məktəblilərin muxtar respublikaya səfərinin onların bu qədim diyarın tarixi, mədəniyyəti, sosial-iqtisadi inkişafı ilə yaxından tanış olmalarına geniş imkan yaratdığı bildirilib.

Tədbirin sonunda tur-aksiya iştirakçılarına hədiyyələr təqdim olunub.

Naxçıvanın zəngin, qədim tarixi ilə bağlı 48 mindən çox eksponatın qorunub saxlandığı Naxçıvan Dövlət Tarix Muzeyi ilə tanışlıq da məktəblilərdə dərin təəssürat yaradıb.

Böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin məzarı üzərində ucaldılmış Hüseyn Cavid məqbərəsinə gələn şagirdlərə məlumat verilib ki, bu möhtəşəm memarlıq-xatirə kompleksi ulu öndərimiz Heydər Əliyevin şəxsi təşəbbüsü və himayəsi ilə tikilib.

Naxçıvan şəhərinin ən hündür məkanında qərar tutan Dövlət Bayrağı Meydanı və Muzeyi ilə tanışlıq da bakılı məktəblilərdə böyük marağa səbəb olub.

Martın 29-da "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyanın iştirakçıları Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola salınıblar. Həmin gün tur-aksiya çərçivəsində Bakı şəhərində olan naxçıvanlı şagirdlər muxtar respublikaya qayıdıblar.

* * *

*Bakı şəhərinə yola düşməzdən əvvəl şagirdlərin Naxçıvan barədə təəssüratlarını öyrəndik.*



***Sabunçu rayon 67 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Saleh Ağamalıyev:*** – Naxçıvanda olduğum günlər həyatımın ən yaddaqalan günləri olacaq. Naxçıvan şəhərinin, Ordubad və Culfa rayonlarının tarixi-mədəni abidələri, ecazkar təbiəti məni heyran etdi.

Tur-aksiya çərçivəsində biz dağlar qoynuna, gözəl təbiətli Şahbuz rayonuna da yollandıq. Rayonda ilk baş çəkdiyimiz ünvanda – "Farma Şah" müəssisəsində mən ilk dəfə dərman bitkilərinin hazırlanmasını gördüm, bu bitkilərin şəfaverici xüsusiyyətləri haqda məlumat aldım.

Qarlı dağların qoynunda yer alan Ağbulaq İstirahət Mərkəzində gördüklərimi də, yəqin ki, uzun müddət unuda bilməyəcəyəm. Belə məkanları mən ancaq televiziya



ekranında görmüşdüm. Bundan başqa, biz Batabat Astrofizika Rəsədxanasında, Şahbuz Dövlət Təbiət Qoruğunda olduq, bənzərsiz mənzərələrin qoynunda xatirə şəkli çəkdirdik. Bütün bunlar yaddaşımda silinməz izlər buraxdı.



***Nizami rayon 238 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Elmira Bədəlsoy:*** – Bu, mənim Naxçıvanla əyani olaraq ilk tanışlığım idi. Burada olduğumuz müddətdə vaxtımız mənalı və xoş keçdi. Məktəbdə tarix kitablarında oxuduğum və yalnız şəklini gördüyüm abidələrlə yaxından tanış oldum. Valehedici idi. Düzünü desəm, Culfa rayonu ərazisindəki Gülüstan türbəsi və Əlincəqalaya tamaşa etməkdən doymadım.

Naxçıvanda qədimliklə yanaşı, müasir görünüş də diqqətimdən yayınmadı. Hər tərəfdə gördüyüm gözəllik, təmizlik çox xoşuma gəldi. Məktəblərin də çox gözəl binaları var. Sinif otaqları, laboratoriyalar, kompüter otaqları ən müasir səviyyədədir. Bir sözlə, şagirdlərin yaxşı oxuması üçün Naxçıvanda hər cür şərait yaradılıb.

Heydər Əliyev adına Hərbi Liseylə tanışlığımız da çox maraqlı oldu. Burada kursantlar üçün yaradılan şərait ürəkaçandır. Naxçıvanla bağlı yaddaşıma xoş xatirələr yazıldı, şagird dostlarımla çoxlu şəkillər çəkdirdik. Qayıdanda dostlarımla paylaşacaq gözəl xatirələrim var. Bizim üçün yaradılan şəraitə görə minnətdaram.

***Suraxanı rayon 84 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Kabirə Salamova:*** – Naxçıvanla tanışlıq hər birimizin ürəyincə oldu. Buradakı tarixi abidələr regionun



zəngin mədəniyyətindən və qədim tarixindən xəbər verir. Naxçıvanın əsrarəngiz gözəlliyinə, ecazkar təbiətinə heyran qaldım.

Muxtar respublikada təhsil sahəsində inkişaf da göz qabağındadır. Tur-aksiya çərçivəsində biz "Naxçıvan" Universitetində və Naxçıvan Dövlət Universitetində də olduq.

Biz Duzdağ Fizioterapiya Mərkəzində duz tuneli və duz qayaları təəccüblə baxdıq. Burada müxtəlif ağciyər xəstəliklərinin müalicə olunduğunu öyrəndik.

Naxçıvana gəlişimiz mənim və dostlarımın Vətənə olan sevgisini daha da artırdı. Aksiya zamanı biz həm də yaşıdlarımızla fikir mübadiləsi aparmaq imkanı qazandıq. Bütün bunlara görə minnətdaram.

✍ **Nail ƏSGƏROV**
**Tural AĞAYEV**

*Naxçıvan şəhərinin 2018-ci ildə Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar hazırlanmış tədbirlər planının müvafiq bəndinə əsasən ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş yeniyetmələr arasında intellektual oyunlar olimpiadasının Ordubad rayon birinciliyi keçirilib.*

## İntellektual oyunlar olimpiadasının Ordubad rayon mərhələsi başa çatıb



Olimpiada çərçivəsində 4 intellektual oyun – "Nuh yurdu", "Kim? Nə? Hara?", "Vətəni tanı" intellektual oyunları, "İntellektual gənc" bilik yarışması vahid turnir şəklində keçirilib.

Sonda "İntellektual gənc" bilik yarışmasında birinci yerə Dəstə kənd 1 nömrəli tam orta məktəbin şagirdi Züleyxa Cəfərova, ikinci yerə Aşağı Əylis kənd tam orta məktəbinin şagirdi Zöhrə Məmmədova, üçüncü yerə isə Əndəmic kənd tam orta məktəbinin şagirdi Nəriman Rzayev layiq görülüblər.

"Kim? Nə? Hara?" intellektual oyununda qalib adını Ordubad şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Ramiz Həsənov qazanıb. Nüsnüs kənd tam orta məktəbinin şagirdi Süsanə Haqverdiyeva ikinci, Ordubad şəhər 3 nömrəli tam orta məktəbin şagirdi Elçin İsgəndərov üçüncü olublar. "Vətəni tanı" intellektual oyununda Dəstə kənd tam orta məktəbinin "Qafqaz" komandası bütün rəqiblərini qabaqlayıb. Digər iki pillədə Ordubad şəhər 3 nömrəli tam orta məktəbin "Kəpəz" və Əndəmic kənd tam orta məktəbinin "Danyeri" komandaları qərarlaşıblar. "Nuh yurdu" intellektual oyununda isə Ordubad şəhər 1 nömrəli tam orta məktəbin "İstiqlal" komandası birinci yerə layiq görülüb. Aşağı Əylis kənd tam orta məktəbinin "Ataşgah" və Əndəmic kənd tam orta məktəbinin "Sülh" komandaları ikinci və üçüncü olublar.

Qaliblərə təşkilatçıların diplom, fəxri fərmanları və oxunması zəruri olan kitablar təqdim edilib.

Qeyd edək ki, qalib komandalar may ayında təşkil olunacaq intellektual oyunlar olmpiadasının muxtar respublika birinciliyində Ordubad rayonunu təmsil edəcəklər.

Tədbir Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilib.

## İdmançımız ölkə birinciliyində gümüş medal qazanıb

***Bakı şəhərinin Şüvəlan qəsəbəsində yerləşən Ağır Atletika Akademiyasının yarış zalında keçirilən kişilər, qadınlar və ustadlar arasında Azərbaycan çempionatına yekun vurulub.***

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və




Azərbaycan Ağır Atletika Federasiyasının birgə təşkil etdiyi yarışda ölkənin bütün bölgələrindən 100-ə yaxın atlet qüvvəsini sınayıb. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş çempionatın təşkilində məqsəd idmançıların ustalıq səviyyəsinin artırılması və təkmilləşdirilməsi, texniki cəhətdən hazırlıqlı və dərəcə normalarını yerinə yetirən idmançıların seçilməsi, kişilərdən və qadınlardan ibarət milli yığma komandaların tərkibinin müəyyənləşdirilməsi, qarşıdakı beynəlxalq yarışlara hazırlanmasıdır.

Ölkə birinciliyində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin ağır atletika üzrə Şərur rayon bölməsinin üzvü Tərmenxan Babayev 85 kiloqram çəki dərəcəsində mübarizə aparıb. 2002-ci il təvəllüdlü idmançımız böyüklərin yarışında iştirak etməsinə baxmayaraq, mükafatçılar arasında yer alıb. Belə ki, təmsilçimiz birdən qaldırmada 135, təkanla qaldırmada isə 162 kiloqramlıq çəkinin öhdəsindən gəlib. Toplamda 297 kiloqramlıq nəticə göstərən Tərmenxan Babayev Azərbaycan çempionatının gümüş medalını qazanıb.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom və medalla mükafatlandırılıb.

✍ **Ceyhun MƏMMƏDOV**

## Xatirə Muzeyinə ekskursiya təşkil edilib



31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində bir qrup yeniyetmə və gəncin Xatirə Muzeyinə ekskursiyası təşkil olunub. Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə 30 nəfər iştirak edib. Muzeyin bələdçisi Leyla Məmmədova iştirakçılara 31 mart soyqırımı haqqında ətraflı məlumat verib, onları muzeydə olan eksponatlarla yaxından tanış edib.

Sonda muzey ziyarətçilərini maraqlandıran suallar cavablandırılıb.

## Şagirdlər üçün açıq dərs

Sədərək Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin təşkilatçılığı ilə Heydərabad qəsəbə tam orta məktəbində "Sosial şəbəkələrin müsbət və mənfi təsirləri" mövzusunda açıq dərs təşkil edilib.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyev və Heydərabad qəsəbə tam orta məktəbinin müəllimi Zakir Zamanov tədbirdə çıxış edərək sosial şəbəkələrin yeniyetmə və gənclərə təsirləri barədə danışıblar. Sonra idarənin əməkdaşı Fizuli Məhəmməd bildirib ki, sosial şəbəkələrin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında əvəzsiz rolu vardır. Bu gün gənclər muxtar respublikanın turizm məkanlarının, tarixi abidələrinin tanıdılmasında sosial şəbəkələrdən geniş istifadə edirlər. Bununla belə, unutmaq olmaz ki, sosial şəbəkələr həm də mənfi təsirlər də göstərə bilər. Ona görə də gənclər diqqətli olmalı, bu məsələdə aludəçiliyə yol verməməlidirlər.

✍ **C.MƏMMƏDOV**


### *Bildiriş*

"Cenber İnşaat Taahhüt Ticaret Turizm və Sanayi Limited" Şirkətinin Naxçıvan Filialı (VÖEN- 0200663741) fəaliyyətini dayandırdığından ləğv olunur.

* * *

"Hidro-Proje Mühendislik İnşaat Müşavirlik Turizm Yayıncılık Ticaret Limited" Şirkətinin Naxçıvan Filialı (VÖEN-0200541961) fəaliyyətini dayandırdığından ləğv olunur.

* * *

"Çınar-San Hafriyat Nakliyat İnşaat Turizm Sanayi və Ticaret Limited" Şirkətinin Naxçıvan Filialı (VÖEN-0200663611) fəaliyyətini dayandırdığından ləğv olunur.

* * *

"Metin Çokan Enerji Turizm İnşaat Makina Sanayi və Ticaret Limited" Şirkətinin Naxçıvan Filialı (VÖEN-0200542211) fəaliyyətini dayandırdığından ləğv olunur.

* * *

"Şener İnşaat Taahhüt Madencilik Nakliyat və Ticaret Limited" Şirkətinin Naxçıvan Filialı (VÖEN- 0300390211) fəaliyyətini dayandırdığından ləğv olunur.

### *İtmişdir*

Mirişli Səadət Arif qızının adına olan evin 104011000183-05101-093031 inventar nömrəli texniki pasportu və 0049787 inventar nömrəli reystrdən çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Eminov Mir Sədi Mir Yasin oğluna məxsus torpaq sahəsinin AA-010116 inventar nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 244